

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 noyabr 2022-ci il №91 (2702) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri

*Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiya Respublikasına rəsmi səfərə gedib.*



Belqrad şəhərinin "Nikola Tesla" hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısını Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç qarşılayıb.

* * *

Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiyanın paytaxtı Belqradda rəsmi qarşılanma mərasimi olub.

Azərbaycanın və Serbiyanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Azərbaycanın və Serbiyanın Dövlət himnləri səslənib.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verib.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Serbiya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə, Azərbaycanın dövlət və hökumət nümayəndələri isə Prezident Aleksandar Vuçiçə təqdim edilib.

* * *

Noyabrın 23-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü olub.

Əvvəlcə birgə foto çəkdirilib.

Görüşdə çıxış edən Serbiya Prezidenti **Aleksandar Vuçiç** deyib:

- Biz bu gün Sizi burada qəbul etmək imkanına görə çox məmnunuq. Serbiyaya xoş gəlmisiniz. Cənab Prezident, Sizinlə əvvəllər də görüşlərimiz olub. Siz ölkəmizə dəfələrlə səfər etmisiniz. Biz Azərbaycanın tutduğu mövqeyi yüksək dəyərləndiririk və bu mövqeyə çox hörmətlə yanaşırıq. Vətəndaşlarımız arasında əlaqələr inkişaf edir. Dostluğumuz həm Sizin, həm də bizim tərəfdə görülən konkret işlərdə öz təzahürünü tapıb. Serbiyanın ərazi bütövlüyünə hər zaman verdiyiniz dəstəyə görə təşəkkürümü bildirirəm. Biz də Azərbaycanın çətin, ağır vaxtlarında eyni mövqedən çıxış etmişik. Azərbaycan bizim çoxdankı dostumuzdur və ümidvaram ki, bundan sonra da biz münasibətlərimizi daha da inkişaf etdirəcəyik. Heç kəs bir faktı inkar edə bilməz ki, biz yaxın dostuq, yaxın dost kimi qalırıq. Bundan sonra da ölkələrimiz arasında əməkdaşlığın səviyyəsini artırmaq üçün əlimizdən gələni edəcəyik. Təşəkkür edirəm. Bir daha xoş gəlmisiniz.

* * *

Sonra çıxış edən Azərbaycan Prezidenti **İlham Əliyev** deyib:

- Sağ olun, cənab Prezident. Dəvətə və qonaqpərvərliyə görə minnətdaram. Gözəl ölkənizdə olmaqdan və fəal dialoqumuzu davam etdirməkdən çox məmnunam. Biz beynəlxalq arenada, bəzi beynəlxalq tədbirlərdə tez-tez görüşürük. Telefonla əlaqə saxlayırıq. Bir sözlə, əlaqədəyik. Biz ikitərəfli əlaqələrimizin inkişafına hər zaman töhfə veririk. Hazırda onların artıq strateji tərəfdaşlıq mahiyyəti var. Bu, sadəcə imzaladığımız bəyanatla kifayətlənmir, əməkdaşlığımızın əsasını təşkil edir. Artıq qeyd etdiyiniz kimi, biz hər zaman bir-birimizin ərazi bütövlüyünü, suverenliyimizi dəstəkləmişik və bunu davam etdirəcəyik. Biz, həmçinin çox sıx şəxsi münasibətlər qurmuşuq, bir-birimizə böyük hörmətlə yanaşırıq. Bu, ikitərəfli əməkdaşlığımızın vacib elementlərindən biridir.

Mən böyük nümayəndə heyəti ilə gəlmişəm və həmçinin Serbiya tərəfinin böyük nümayəndə heyətini görürəm. Nümayəndə heyətimizin üzvlərinin çox fəal surətdə söhbət aparmaq və gələcək addımları planlaşdırmaq üçün yaxşı fürsəti olacaq. Əməkdaşlığımızı hansı şəkildə daha da inkişaf etdirmək, tərəfdaşlığımızı gücləndirmək yollarını müzakirə edəcəyik. Qonaqpərvərliyə görə bir daha minnətdaram.

* * *

Noyabrın 23-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə geniş tərkibdə görüşü olub.

Azərbaycan Prezidentini salamlayan Serbiya Prezidenti **Aleksandar Vuçiç** deyib:

- Hörmətli cənab Prezident.

Əziz dostlar.

Serbiyaya gəldiyinizə görə təşəkkür edirik. Bu gün Sizi Belqradda görməkdən çox məmnunuq. Sizi yenidən öz ölkəmizdə görürük və ümid edirik ki, biz də Sizin ölkəyə səfər edəcəyik. Səfər etdiyinizə görə minnətdarıq və bilirik ki, Siz bu günlərdə çox məşğulsunuz. Amma öz tərəfimdən deyə bilərəm ki, Sizin fəaliyyətiniz daha məhsuldardır. Biz ən yaxşı dostlarıq. Bilirəm ki, ölkəmizə səfərinizi öz gündəliyinizə salmaq nə dərəcədə çətin idi.

Təkbətək görüş zamanı ölkələrimiz arasında real dostluq bir daha təsdiqləndi. Biz hər zaman Azərbaycanın ərazi bütövlüyünə böyük dəstək vermişik. Siz də həmişə heç də asan olmayan şəraitdə Serbiyanın ərazi bütövlüyünü və suverenliyini hər zaman çox dəstəkləmisiniz. Biz eyni addımları davam etdirəcəyik. Bilirəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan hər zaman eyni mövqedən çıxış edəcək.

Son dövrdə əldə etdiyiniz bir çox uğurlar münasibətilə Sizi təbrik edirik. İqtisadi uğurlarınız hər kəsin marağına səbəb olur. Biz Sizin timsalınızda real, çiçəklənən ölkəni, Serbiyanın daha böyük dostunu və müttəfiqini görürük. Gəldiyinizə görə bir daha təşəkkür edirik. Ümidvaram ki, mənim Bakıya səfərim və Sizin yenidən Belqrada gələcəyiniz zaman məsələləri müzakirə etmək üçün daha çox vaxtımız olacaq.

* * *

Azərbaycan Prezidenti **İlham Əliyev** çıxış edərək deyib:

- Sağ olun, cənab Prezident.

İlk növbədə, dəvətə görə minnətdaram. Sizi yenidən görməyimə çox şadam. Qonaqpərvərliyə görə təşəkkür edirəm. Bizim elə indicə təkbətək surətdə ikitərəfli çox yaxşı və məhsuldar müzakirəmiz oldu. İndi isə söhbətimizi davam etdirəcəyik. Siz haqlı olaraq qeyd etdiyiniz kimi, Serbiya və Azərbaycan hər zaman beynəlxalq arenada bir-birini dəstəkləyiblər. Ölkələrimizin ərazi bütövlüyünə və suverenliyinə aid məsələlərə hər zaman ölkələrin maraqları əsasında baxılıb. Bu da təbiidir, çünki ölkələrimiz strateji tərəfdaşdırlar. Biz əməkdaşlığımızın yeni səviyyəyə qaldırılması üçün müvafiq sənədləri imzalamışıq. Eyni zamanda, əməkdaşlığımızın məzmunu da mehribançılığa əsaslanır. Bu gün biz bir çox məsələləri müzakirə edəcəyik. Fürsətdən istifadə edərək mən Sizi Azərbaycana səfərə dəvət etmək istəyirəm. Azərbaycana rəsmi səfərinizdən sonra biz son bir neçə il ərzində beynəlxalq tədbirlər əsnasında dəfələrlə görüşmüşük və bir yerdə söhbət aparmaq imkanımız olub. Bu dəvətə görə minnətdaram və gözəl ölkənizdə, bizə dost olan Serbiyada yenidən olmağıma, Sizinlə və nümayəndə heyətimizin digər üzvləri ilə strateji tərəfdaşlığımızın gələcək inkişafına töhfə verməyimə çox şadam. Bir daha sağ olun və Sizi Azərbaycanda səfərə gözləyəcəyik.

* * *

Noyabrın 23-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç "Azərbaycan Respublikası Prezidenti ilə Serbiya Respublikası Prezidenti arasında Birgə Bəyanat"ı, "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandum"u və onun əlavəsi olan "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının Əsasnaməsi"ni imzalayıblar.

Bundan əlavə nümayəndə heyətləri arasında 5 sənəd imzalanıb. İki ölkə arasında əlaqələri möhkəmləndirmək və inkişaf etdirmək üçün ümumilikdə 7 sənəd imzalanıb.

* * *

Noyabrın 23-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Serbiya Prezidenti bəyanatla çıxış edib.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri



(Əvvəli 1-ci səhifədə)

### Prezident Aleksandar Vuçiçin bəyanatı

- Hörmətli Prezident Əliyev.

Hörmətli dostlar, Azərbaycan hökumətinin hörmətli nazirləri, Serbiya Respublikasının hörmətli nazirləri, hörmətli jurnalistlər.

Bu gün Belqradda ölkəmizin əsl dostunu, Azərbaycan Prezidenti cənab İlham Əliyevi qəbul etməkdən çox şadam. Bu gün səhərdən etibarən bizim çox yaxşı müzakirəmiz oldu. Təəssüf ki, ümumi vəziyyətə görə o, ölkəmizdə daha uzun müddət ərzində qala bilmir, lakin inanıram ki, qısa müddətdən sonra əlimizə yenə də onu Serbiyada qəbul etmək fürsəti düşəcək.

Bizim Azərbaycanla bir çox oxşarlıqlarımız var. Hər iki ölkə öz ərazi bütövlüyünü qətiyyətli şəkildə qoruyub saxlayır və biz bir-birimizə beynəlxalq arenada, beynəlxalq təsisat və təşkilatlarda BMT Nizamnaməsinə və beynəlxalq ictimai normalara əməl edərək kömək edirik. Biz bu məsələdə bir-birimizə etibar edə bilərik.

Bu gün Prezident Əliyevdən bir çox məsələləri öyrəndik. Yalnız bir neçə ölkənin beynəlxalq hüquq normalarına riayət etməsindən başqa beynəlxalq hüquqdan çox az bir şey qalıb. Biz buna əməl etməyin gələcəyimiz üçün yeganə imkan və seçim olduğunu düşünürük. Bu gün biz Azərbaycanla Birgə Bəyanatı, strateji tərəfdaşlıq və müttəfiqlik haqqında Memorandumu imzaladıq. Biz bu əməkdaşlığı yeni müstəviyə qaldırdıq. Bu gün biz bütün vacib məsələləri müzakirə etdik. Bu məsələlər arasında enerji sahəsində əməkdaşlığın necə aparılması məsələsi də yer almışdır. Qazın istehsalı və ixracına gəldikdə, Azərbaycan qüdrətli ölkədir, yeddi, səkkiz və on ildən sonra Azərbaycan 35 milyard kubmetrdən daha çox qaz ixrac edəcək. Bu gün qaz ixracı təxminən 22 milyard kubmetr təşkil edir. Bu həcmin yarısından çoxu Avropa ölkələrinə nəql olunur. Məhz buna görə biz Serbiya və Bolqarıstan arasında interkonnektorun yaradılması üzərində çalışırıq ki, Bakıdakı dostlarımızın ixrac etdiyi əhəmiyyətli qaz həcmlərini təchiz edə bilək. Biz elektrik enerjisinin verilişini müzakirə etdik. Çünki Gürcüstan, Rumıniya və Macarıstanı birləşdirən böyük bir Avropa layihəsi var. Biz Avropadan olan tərəfdaşlarımızın bu layihəyə qoşulmasını müzakirə edəcəyik. Çünki burada elektrik xətti suyun altından çəkiləcək. Xətt Qara dənizin altından keçir ki, bizim paylayıcı şəbəkə Rumıniya və Macarıstanın paylayıcı şəbəkəsinə müvəffəqiyyətlə qoşula bilsin, nəticədə biz gələcəkdə təhlükəsiz şəkildə elektrik enerjisini ala bilək və ölkəmizin elektrik enerjisi ilə bağlı tam təhlükəsizliyini təmin edək. Bu, həmçinin ölkəmizdə sənaye istehsalının genişlənməsi və vətəndaşlarımızın artan ehtiyacları ilə bağlıdır. Bizə bu enerji təhlükəsizliyi lazım olacaq və biz Azərbaycandan olan dostlarımıza, xüsusilə Prezident Əliyevə buna görə minnətdarıq. Əlbəttə ki, Serbiya etibarlı tərəfdaşdır və mən bir az bundan əvvəl bir zarafat etdim. Prezident Əliyev bizim ərazimizdən Tartak, Prelinaya yolun çəkildiyini gördükdə buna inana bilmədi. Bu Prelina hissəsi onlar tərəfindən tikilmişdir. Bu, həqiqətən də çətin hissə idi və onlar işi vaxtında, heç bir gün də gecikmə olmadan təhvil verdilər. Bu da bizim üçün qəribədir. Onlar bir il yarım bundan əvvəl 2011-ci ildə götürdüyümüz bütün borcu geri ödədiyimizə görə təəccübləndilər. Biz bu borcu tam şəkildə əvvəlcədən ödədik, çünki ölkələr adətən bunu etmirlər. Lakin Serbiya borcları ödəmək üçün imkanımız olduqda belə məsələlərə alışıb. Mən bunu nəyə görə deyirəm, çünki bu baxımdan bizim də bildiyimiz kimi Azərbaycan Serbiyanın etibarlı tərəfdaş olduğunu bilir. Prezident Əliyev və Azərbaycan təkcə bizə münasibətdə yox, hər kəsə münasibətdə etibarlı tərəfdaşdır.

Mən Prezident Əliyevə dedim ki, bütün şəffaf protokol məsələlərinə görə bəzi sənədlər imzalanmalı olsa da, onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq. O, nəyi deyirsə, mənim üçün kifayətdir, bilirəm ki, bu, belə də olacaq. Bu, bizim üçün həqiqətən də vacibdir.

Biz bir çox başqa mühüm məsələləri müzakirə etdik, gübrə çatışmazlığı, neft-kimya müəssisələrinin fəaliyyəti barədə danışdıq, bir çox başqa məsələləri - hərbi-texniki əməkdaşlığı, nazirliklər arasında bir çox başqa məsələləri, beynəlxalq arenada əməkdaşlığın gələcək inkişafı üçün məsələləri müzakirə etdik. Bütün səviyyələrdə əməkdaşlıq, kənd təsərrüfatı sahəsində, iki ölkənin nazirlikləri tərəfindən bu gün imzalanmış əmək, sosial müdafiə sahəsində mühüm razılaşmalar var. Biz müzakirələri davam etdirəcəyik. Bizim üçün olduqca əhəmiyyət kəsb edən bir neçə məsələni müzakirə etmək üçün qarşıdakı 20 gündə mənim Bakıya, Azərbaycana qeyri-rəsmi, lakin mühüm səfərim gözlənilir. Məni bu gün əsası qoyulmuş strateji tərəfdaşlığı çox konkret razılaşmalar və əməli addımlarla dərinləşdirmək üçün Serbiya hökumətinin bir neçə naziri müşayiət edəcək. Görürəm ki, bu, zarafat deyil, baxmayaraq ki, kiməsə zarafat kimi görünə bilər, İlham Əliyev bu gün Avropada ən populyar şəxsdir. Avropada necə dəyişikliklərin baş verməsi inanılmazdır. Adətən onlar onun üçün vaxt tapa bilmirdilər, indi isə bütün vaxtlarını ona ayırırlar, çünki onların Azərbaycan qazına və Azərbaycanın təklif edə biləcəyi hər şeyə ehtiyacları olduğundan o, orada çox sevilir. Lakin mən bilirəm ki, o, ağıllı insandır, hər şeyi görür, hər şeyi başa düşür, düzünü desəm, mən bir az paxıllıq edirəm. Onlar mənə yalnız Kosovo ilə bağlı məsələ olanda, Kosovo ilə bağlı nəyə isə ehtiyacları olanda, məni təhdid etmək üçün zəng vururlar. Lakin Prezident İlham Əliyevi sevirlər və sevdiklərinə görə ona zəng vururlar. Onlar ondan hər şeyi xahiş edirlər. Mən həqiqətən şadam ki, mənim böyük dostum və Serbiyanın böyük dostu necə uğur qazanıb və dəyişməyib, o, hər zaman öz ölkəsinin təhlükəsizliyini təmin edib, ona hörmət edilməsinə nail olub, öz ölkəsinin qayğısına qalır və öz ölkəsinin maraqlarını müdafiə edir. Qoy başqaları düşünsün ki, onlar dəyişiblər ya yox, yanaşma və prinsiplərini dəyişiblər ya yox.






Serbiya kiçik ölkədir. Bizim qazımız yoxdur. Bizim litiumumuz var. Lakin biz yeganə ölkəyik ki, dünya miqyasında litium istehsalını əldən vermişik, daha ağıllı insanlar hakimiyyətə gəldikdə bu işi yerinə qoyacaqlar. Ölkəmizin təhlükəsizliyini təmin edəcəyik, ən azı cənab Əliyevin Azərbaycan üçün etdiklərinin yarısını edəcəyik. Biz ölkəmizin həqiqi dostunun kim olduğunu hər zaman görmüşük və onlarla əməkdaşlığımızı inkişaf etdirmək üçün əlimizdən gələni edəcəyik. Mən çox şadam və günün qalan hissəsini, həmçinin Azərbaycandakı görüşlərimizi səbirsizliklə gözləyirəm. Burada, Belqradda daha bir görüşü səbirsizliklə gözləyirəm. O zaman mən Azərbaycan Prezidentindən ölkəmizdə daha çox qalmağı xahiş edəcəyəm, çünki ölkəmizdə ən azı bir gecə qalmasanız bizim xətrimizə dəyər. İnanırıq ki, qonaqpərvərliyimizi nümayiş etdirə bilərik. İnanırıq ki, özünüzü Avropada heç yerdə olmadığı kimi Serbiyada evinizdəki kimi hiss edəcəksiniz. Bir daha təşəkkür edirəm, xalqınıza ən xoş arzularımı çatdırıram.

Qarşıda bizi çox işlər gözləyir və mən bu gün imzaladığımız bütün sənədlərə görə çox xoşbəxtəm və bilirəm ki, hələ çox işlər görüləcək. Biz Azərbaycan və Serbiya xalqlarının, vətəndaşlarının maraqları və rifahı naminə daha çox iş görə biləcəyik. Bir daha təşəkkür edirəm.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti bəyanatla çıxış edib.



### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Gözəl ölkənizə dəvətə görə də Sizə minnətdaram. Eyni zamanda, Azərbaycan haqqında dediyiniz xoş sözlərə görə də Sizə təşəkkürümü bildirirəm. Bu, əsl dostun sözləridir. Bizi Prezident Vuçiç ilə dostluq əlaqələri bağlayır və hesab edirəm ki, Serbiya-Azərbaycan əlaqələrinin sürətli inkişafında bu amil önəmli rol oynamışdır.

Aramızda imzalanmış sənədlər ikitərəfli əlaqələrimizin hüquqi bazasını təşkil edir və onların arasında, əlbəttə ki, strateji tərəfdaşlıq haqqında sənədlər xüsusi yer tutur. Biz sözün əsl mənasında strateji tərəfdaşıq. Çünki bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və bizim əməkdaşlığımızın strateji hədəfləri var.

Serbiya və Azərbaycan bir-birini hər zaman beynəlxalq arenalarda müdafiə edir, dəstəkləyir. Prezident Vuçiçin dediyi kimi, ölkələrimizin suverenliyi, ərazi bütövlüyü qarşılıqlı surətdə dəstəklənir və bu mövqe birmənalıdır, dəyişməzdir və dəyişməz olaraq qalacaq. Eyni zamanda, Prezident Vuçiçin beynəlxalq təşkilatlarla bağlı dediyi sözlərə də şərh verərək bir neçə kəlmə demək istərdim. Bizim torpaqlarımız uzun illər işğal altında idi.

Dünyanın aparıcı beynəlxalq təşkilatları bu işğalla bağlı önəmli və həqiqəti əks etdirən qərar və qətnamələr qəbul etmişdilər. Onların arasında, əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qeyd etməliyəm. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz və tam şəkildə çıxarılması tələb edilirdi. BMT-nin Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, ATƏT, yəni, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər, ancaq məsələ öz həllini tapmırdı.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri



(Əvvəli 2-ci səhifədə)

Bu nəyi göstərir? Onu göstərir ki, beynəlxalq təşkilatların qərar və qətnamələri, onların icrası selektiv xarakter daşıyır. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra edilir, bəzi hallarda isə bir neçə saat ərzində icra edilir. Amma bizim məsələmizə gəldikdə, biz 27 il bu qərarların icrasını gözləyirdik və buna nail ola bilmədik. Ona görə dünya ictimaiyyəti beynəlxalq təşkilatların gələcək fəaliyyəti ilə bağlı öz təkliflərini verməlidir. Biz də Azərbaycan olaraq buna hazırıq. Çünki qəbul edilmiş qərarlar əgər həyatda öz əksini tapmırsa, yerinə yetirilmirsə, əlbəttə ki, bu, çox düşündürücüdür.

Biz nəticə etibarilə görəndə ki, bütün bu səylər, o cümlədən aparılan danışıqlar səmərə vermir, güc amilindən istifadə etdik. Beynəlxalq hüquq bu imkanı bizə verirdi, BMT-nin Nizamnaməsi bu imkanı bizə verirdi, özünümüdafiə etmə haqqı bütün dövlətlərə şamil edilməlidir, o cümlədən Azərbaycana. Biz güc yolu ilə öz ərazi bütövlüyümüzü bərpa etdik, ədaləti bərpa etdik və artıq iki ildir ki, Azərbaycan xalqı azad edilmiş torpaqlarda qurub-yaradır, binaları bərpa edir, bütün o böyük ərazini - 10 min kvadratkilometrdən böyük olan ərazini yenidən qurur.

Biz, əlbəttə ki, bu və digər məsələləri ölkələrimizin maraqlarının prizmasından təhlil edirik və bu gün ikitərəfli formatda bir çox beynəlxalq məsələlərə də toxunduq. Eyni zamanda, regional təhlükəsizlik məsələlərini müzakirə etdik. Mənim dostum Aleksandar dediyi kimi, energetika sahəsindəki əməkdaşlığı müzakirə etdik və bu gün bu müzakirələr davam edəcək. Təbii qaz, elektrik enerjisi sahələrində əməkdaşlıq üçün yeni imkanlar var. Azərbaycanın zəngin qaz resursları bu gün bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayır və bizim rolumuz getdikcə artacaq. Əlbəttə ki, ilk növbədə, biz dost olan ölkələrlə bu sahədə və bütün başqa sahələrdə əməkdaşlığı dərinləşdirmək fikrindəyik. O cümlədən hərbi-texniki sahədə əməkdaşlıq aparılır və bu əməkdaşlığın daha da dərinləşməsi, daha geniş vüsət alması istiqamətində əlavə addımlar atılacaqdır.

Bir sözlə, biz bu gün növbəti illər üçün bir gündəlik tərtib etdik. Əlbəttə ki, prezidentlər bu gündəliyi diqqətdə saxlayacaqlar, bu məsələlərin icrasına nəzarət edəcəklər. Bunu daha operativ və səmərəli şəkildə etmək üçün əlbəttə ki, biz tez-tez görüşməliyik.

Mən əziz dostumu, Prezident Vuçiçi Azərbaycana səfərə dəvət etdim. Hesab edirəm ki, ilin sonuna qədər bu səfər gerçəkləşə bilər və ondan sonra, əlbəttə, mən də yenidən gələcəyəm. Mənim Serbiyaya səfərim bir qədər uzandı, yəni, bir qədər gecikdi. Çünki Prezident Vuçiç üç il yarım bundan əvvəl Azərbaycanda idi. Mən də cavab səfəri etməli idim. Amma COVID-in müdaxiləsi nəticəsində bir qədər ertələndi. Amma yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Belə səfərlərimiz çox olacaq. Bizim dostluğumuz da əbədi olacaq. Qonaqpərvərliyə və diqqətə görə bir daha təşəkkürümü bildirirəm.

* * *

Noyabrın 23-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Baş naziri xanım Ana Brnabiç ilə geniş tərkibdə görüşü olub.



Serbiyanın Baş naziri **Ana Brnabiç** deyib:

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Sizi bu gün Belqradda görməkdən olduqca məmnunam. Bilirəm ki, bizim bir çox məsələlərə nəzər salmaq imkanımız oldu. Sizin bizim Prezidentlə məhsuldar müzakirələriniz olub. Sizi əmin etmək istərdim ki, Serbiya hökumətinə arxalana bilərsiniz. Siyasi və iqtisadi əlaqələrimiz inkişaf edir. Azərbaycanın bizim üçün çox böyük əhəmiyyəti var. Ölkəniz bizim əsl dostumuzdur. Artıq qeyd etdiyim kimi, Sizinlə görüşməkdən və məsələləri müzakirə etməkdən məmnunam və şərəf hissi duyuram. Özünüzü burada öz evinizdəki kimi hiss edin. Mən Sizinlə birgə işləməyi səmimiyyətlə arzulayıram.



Azərbaycan Prezidenti **İlham Əliyev** deyib:

- Çox sağ olun, hörmətli Baş nazir. Sizi görməyimə çox şadam. Haqlı olaraq qeyd etdiniz ki, Prezidentlə bizim çox konstruktiv görüşümüz oldu, biz qarşılıqlı maraq doğuran bir çox məsələləri müzakirə etdik. Hazırda biz həmin məsələləri davamlı şəkildə nəzərdən keçirəcəyik. Ölkələrimiz strateji tərəfdaşlardır və biz Serbiyanı Avropada özümüzün ən yaxşı dostlarımızdan biri hesab edirik. Əməkdaşlığımızın mahiyyəti onun formalarını özündə əks etdirir. Biz bu gün bir neçə mühüm sənəd imzalamışıq və onlar iş birliyimizin hüquqi əsaslarını genişləndirir. Lakin, əlbəttə ki, strateji tərəfdaşlığa aid sənəd xüsusi əhəmiyyət kəsb edir.

Təbii ki, qlobal gündəlikdə mühüm məsələlərdən biri enerji təhlükəsizliyidir və biz cənab Prezidentlə bu məsələni müzakirə etdik. İndi isə işimizi davam etdiririk. Eyni zamanda, düşünürəm ki, biz daşımalarla bağlı infrastrukturumuzun birləşdirilməsi üzərində çalışmalıyıq. Çünki Serbiya və Azərbaycan Avropanı Asiya ilə birləşdirən enerji marşrutunun üzərində yerləşir. Fikrimcə, bu sahədə əməkdaşlığın əhatə dairəsi daha geniş olmalıdır. Həmçinin mən ikitərəfli ticarətə aid bəzi məlumatlara baxdım. Rəqəmlər çox kiçikdir. Bu il dövriyyə artımına baxmayaraq, yenə də hesab edirəm ki, bunun üzərində işləmək imkanları var. Əlbəttə, bütün bu və digər məsələlər nəzərdən keçiriləcək. Ümid edirik ki, səfərdən sonra əməkdaşlığımızda yeni dinamikanı görəcəyik.

* * *

Serbiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də paytaxt Belqraddakı Taşmaydan parkında Ümummilli Lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini ziyarət edib.

Dövlətimizin başçısı abidələrin önünə əklil qoyub.

Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin Taşmaydan parkında ucaldılmış abidəsinin açılışı Prezident İlham Əliyevin iştirakı ilə 2011-ci ildə olub.

Dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin abidəsinin paytaxt Belqradın Taşmaydan parkında ucaldılması ölkələrimiz arasındakı əlaqələrin yüksək səviyyədə olmasının göstəricisidir.

* * *

Noyabrın 23-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç tərəfindən rəsmi lanç verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri noyabrın 23-də başa çatıb.

Belqrad şəhərinin "Nikola Tesla" hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülübdü.

Dövlətimizin başçısını Serbiya Prezidenti Aleksandar Vuçiç yola salıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Quru Qoşunlarının birləşmələri ilə komanda-qərargah təlimləri keçirilir



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, cari ilin döyüş hazırlığı planına uyğun olaraq Quru Qoşunlarının birləşmələri ilə komanda-qərargah təlimləri keçirilir.

Təlimə cəlb olunan birləşmə və hissələr müxtəlif dərəcəli döyüşə hazırolma vəziyyətinə gətirilib, ehtiyat və təyinat rayonlarına çıxarılaraq idarəetmə orqanlarının ərazidə açılması təmin olunub.

Tapşırıqların icrası ilə bağlı bölmələrin fəaliyyətləri xəritə üzərində dəqiqləşdirilir, komandirlər tərəfindən qəbul edilmiş qərarların məruzələri dinlənilir.

Komanda-qərargah təlimlərinin keçirilməsində əsas məqsəd bölmələrin müxtəlif döyüşə hazırolma vəziyyətlərinə gətirilməsi zamanı komandirlərin idarəetmə qabiliyyətini və çevik qərar qəbuletmə bacarıqlarını artırmaq, eləcə də qərargahların fəaliyyətini və bölmələr arasında qarşılıqlı əlaqəni daha da təkmilləşdirməkdir.



Təlimdə qarşıya qoyulan tapşırıqlar hərbi qulluqçular tərəfindən müvəffəqiyyətlə yerinə yetirilir.

# “Vətən müharibəsinin təcrübələri” mövzusunda konfransın açılış mərasimi keçirilib



*Noyabrın 23-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının "Şöhrət" muzeyində Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Katibinin Xidmətinin təşkilatçılığı ilə "Vətən müharibəsinin təcrübələri" mövzusunda konfrans öz işinə başlayıb.*

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi general-polkovnik Ramil Usubov, Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, DTX-nin rəisinin birinci müavini general-leytenant Ceyhun Şadlinski, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi general-mayor İlqar Abbasov, hüquq-mühafizə və digər dövlət orqanlarının rəhbər əməkdaşları, Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargahının və Milli Təhlükəsizlik Şurası Baş Katibliyinin nümayəndələri iştirak ediblər. Konfransın məqsədi Vətən müharibəsinin nəticələrinin təhlilinin və müharibədə qazanılmış hərbi təcrübənin aidiyyəti qurumlar arasında mübadiləsinin təmin olunmasıdır.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin "Şöhrət" muzeyinin qarşısında ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.



Ulu Öndərin və ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Təhlükəsizlik Şurasının katibi general-polkovnik Ramil Usubov çıxış edərək tədbirin təşkilində göstərdiyi dəstəyə görə DTX-nin rəhbərliyinə minnətdarlığını ifadə edib, bu mövzuda konfransın keçirilməsinin əhəmiyyətindən danışıb. O, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi altında şanlı Qələbəmizlə yekunlaşan 44 günlük Vətən müharibəsinin tariximizdə silinməz iz buraxdığını, bu müharibənin ordumuzun döyüş təcrübəsinin artırılmasında əvəzsiz rol oynadığını, hərbi əməliyyatların planlaşdırılması və aparılmasının xarici ölkələrin hərbi müəssisələrində öyrənildiyini diqqətə çatdırıb. General-polkovnik Ramil Usubov müharibənin nəticələrinin təhlilinin və əldə olunan təcrübənin milli təhlükəsizliyin etibarlı təminatı, silahlı qüvvələrimizin müdafiə qabiliyyətinin artırılmasında önəmli amil olduğunu bildirib.





Daha sonra müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxış edərək ölkə rəhbərinin tapşırığı əsasında, Vətən müharibəsindən sonra Azərbaycan Ordusunun hərbi potensialının artırılması yönümündə həyata keçirilən islahatlar, yeni hərbi birliklərin yaradılması, qarşıya qoyulmuş vəzifələrin operativ və çevik yerinə yetirilməsi üçün silahlı qüvvələrimizin şəxsi heyətinin hərbi təhsil səviyyəsinin yüksəldilməsi, müasir hərbi texnika və avadanlıqlarla təchiz olunması barədə məlumat verib.

DTX-nin rəisinin birinci müavini general-leytenant Ceyhun Şadlinski çıxışında qeyd edib ki, iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində görülən işlərə Ermənistandakı revanşist qüvvələrin hər vəchlə maneçilik törətməyə çalışması, bu ölkənin silahlanmaya və ordu quruculuğuna öz imkanlarından artıq maliyyə vəsaiti ayırması, müxtəlif xarici dövlətlərdən müasir silahlar və hərbi təyinatlı avadanlıqlar almağa cəhdlər göstərməsi, sülh müqaviləsinin imzalanmasını bütün mümkün vasitələrdən istifadə etməklə yubatmağa meyil etməsi narahatlıq doğuran məqamlardır. Həmçinin vurğulanıb ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisinə hərbi texnikaların daşınması, orada müxtəlif təxribat xarakterli tədbirlərin keçirilməsinə şərait yaradılması da xüsusilə diqqət çəkir. İran xüsusi xidmət orqanlarının Azərbaycana qarşı aktiv şəkildə həyata keçirdiyi kəşfiyyat-pozuculuq fəaliyyətindən də danışan natiq bu istiqamətdə görülən kəsərli tədbirlərdən söhbət açıb.



Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev bildirib ki, həm Vətən müharibəsi zamanı, həm də müharibədən sonrakı dövrdə məkrli qüvvələr tərəfindən respublikamızın informasiya təhlükəsizliyinə yönələn təhdidlərin və kiberhücumların qarşısının alınması, savaş dövründə hərbi obyektlərimizin xüsusi rabitə avadanlıqları ilə təminatı, radiostansiyaların işinin səmərəli təşkili üçün digər qurumlarla birgə lazımi tədbirlər görülüb.

Konfrans öz işini noyabrın 25-dək hərbi təhlükəsizlik, səfərbərlik hazırlığı, strateji kommunikasiya, informasiya təhlükəsizliyi, kibertəhlükəsizlik, milli müdafiə və digər aidiyyəti mövzular üzrə mühazirələr və panel müzakirələrlə davam etdirəcək.

# MÜDAFİƏ NAZİRLİYİNİN MƏTBUATA AÇIQLAMASI

Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunun yaşayış məntəqələrinin Azərbaycan toponimlərinə uyğun adlı siyahısı və xəritəsi Rusiya Federasiyasının Müdafiə Nazirliyi, Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin əvvəlki və hazırkı komandanlığı, eləcə də Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinə Azərbaycan tərəfindən rəsmi qaydada göndərilmiş və məlumatlarda məhz bu adlardan istifadə olunması barədə dəfələrlə müraciət edilmişdir.

Buna baxmayaraq, təəssüf ki, Rusiya Federasiyasının Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində dərc olunan Rusiya Federasiyasının sülhməramlı kontingentinin rəsmi məlumatlarında yaşayış məntəqələrimizin adları uydurma erməni toponimləri ilə qeyd edilir.

Belə ki, Rusiya Federasiyasının sülhməramlı kontingentinin 24 noyabr 2022-ci il tarixli rəsmi məlumatında "Maqavuz" yaşayış məntəqəsi istiqamətində Azərbaycan tərəfindən guya atəşkəsin pozulmasının qeydə alındığı bildirilir.

Rusiya tərəfinin nəzərinə çatdırırıq ki, onların "Maqavuz" adlandırdığı Azərbaycan yaşayış məntəqəsinin rəsmi adı ÇARDAQLIDIR. Azərbaycan Ordusunun bölmələri atəşkəsi pozmayıb və bu istiqamətdə heç bir atəş açmayıb.

Eyni zamanda, onu da bəyan edirik ki, son zamanlar qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atəşkəsin pozulması və digər hadisələr barədə Rusiya tərəfinə verilən məlumatlar nədənsə Rusiya sülhməramlı kontingentinin rəsmi açıqlamalarında öz əksini tapmır.

Azərbaycan Müdafiə Nazirliyinin dəvətinə əsasən, Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin komandanı və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin rəhbərliyi qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Sarıbaba yüksəkliyinin şimal istiqamətində basdırılmış və Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən aşkar edilmiş Ermənistan istehsalı olan PMN-Э markalı piyada əleyhinə mina sahəsinə noyabrın 23-də baxış keçiriblər.

Baxış zamanı bildirilib ki, ərazidən təkcə 2021-ci ildə Ermənistanda istehsal edilmiş 350 ədəd PMN-Э markalı piyada əleyhinə mina bölmələrimiz tərəfindən aşkar edilərək zərərsizləşdirilib. Təəssüflər olsun ki, bu barədə də Rusiya sülhməramlı kontingenti tərəfindən rəsmi məlumat verilməyib.

Azərbaycan Respublikası ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin komandanlığını müvafiq məlumatlarında ölkəmizin ərazisindəki yaşayış məntəqələrinin adlarını düzgün toponimlərlə ifadə etməyə və qanunsuz erməni hərbi birləşmələrinin ərazilərin minalanması daxil olmaqla, bütün təxribatçı fəaliyyətlərinin ciddi surətdə qarşısının alınmasına çağırırıq.

# Bakıda keçirilən “NATO günləri” çərçivəsində bir sıra tədbirlər keçirilib



*"NATO günləri" çərçivəsində ölkəmizdə səfərdə olan NATO-nun Müttəfiq Qüvvələrinin Avropadakı Baş Qərargah rəisinin müavini kontr-admiral Qunnşteyn Brusdalın rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 22-də Milli Müdafiə Universitetini ziyarət edib.*

Milli Müdafiə Universitetinin rektoru general-leytenant Heydər Piriyev qonaqları salamlayaraq, NATO ilə əməkdaşlıq çərçivəsində təşkil olunan görüşlərin hər iki tərəf üçün səmərəli olduğunu bildirib. Ölkəmizin NATO ilə mövcud hərbi əməkdaşlığının bundan sonra daha da genişləndirilməsində maraqlı olduğu qeyd edilib.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən kontr-admiral Q.Brusdal Azərbaycan Ordusunun müxtəlif sahələrində görülən işlərin hərbi təhsil sahəsinə də müsbət təsir etdiyini xüsusi vurğulayıb. Azərbaycan Ordusunun hərbi qulluqçularının NATO-nun müxtəlif proqramları çərçivəsində fəaliyyətlərini yüksək qiymətləndirən qonaq Azərbaycan ilə NATO arasında əlaqələrin uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Sonra Milli Müdafiə Universitetinin və onun nəzdindəki digər hərbi təhsil müəssisələrinin fəaliyyət istiqamətləri, strukturu və qarşıda duran vəzifələri ilə bağlı qonaqlara brifinq təqdim olunub.

NATO nümayəndə heyəti də öz növbəsində, NATO-nun tarixi, strukturu və Azərbaycan-NATO əlaqələrini özündə əks etdirən prezentasiyaları dinləyicilərə təqdim edib.

Sonda qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.



* * *

"NATO günləri" çərçivəsində ölkəmizdə səfərdə olan NATO-nun Müttəfiq Qüvvələrinin Avropadakı Baş Qərargahının nümayəndələri noyabrın 23-də "N" hərbi hissəsində olublar.



Nümayəndə heyətinə Azərbaycan-NATO əlaqələri, hərbi hissənin fəaliyyəti və təlim mərkəzləri, eləcə də şəxsi heyətin hazırlıq prosesi haqqında brifinq təqdim olunub.

Sonra NATO-nun Müttəfiq Qüvvələrinin Avropadakı Baş Qərargahının nümayəndələri tərəfindən müxtəlif mövzularda brifinqlər verilib.

Brifinqlərin təqdimatından sonra qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

Daha sonra nümayəndə heyəti hərbi hissənin xatirə kitabına ürək sözlərini yazıb.

Sonda qonaqlar hərbi hissədə hərbi qulluqçular üçün yaradılan xidməti şərait və silahlanmada olan döyüş texnikası ilə tanış olublar.

* * *

Noyabrın 24-də NATO-nun Müttəfiq Qüvvələrinin Avropadakı Baş Qərargahının nümayəndələri "NATO günləri" çərçivəsində ölkəmizdə səfəri zamanı Hərbi Dəniz Qüvvələrini (HDQ) ziyarət ediblər.

Qonaqlara Azərbaycan HDQ-nin tarixi və fəaliyyət istiqamətləri haqqında brifinq təqdim olunub.

Sonra NATO-nun Müttəfiq Qüvvələrinin Avropadakı Baş Qərargahının nümayəndələri NATO-nun yaranma tarixi, strukturu və ümumi fəaliyyətini əhatə edən müxtəlif mövzularda çıxışlar ediblər.

Təqdimatlar başa çatdıqdan sonra qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

Sonda xatirə şəkli çəkdirilib.



# Qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən basdırılmış mina sahəsinə baxış keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Sarıbaba yüksəkliyinin şimal istiqamətində basdırılmış Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin aşkar etdiyi Ermənistan istehsalı olan piyada əleyhinə mina sahəsinə baxış keçirilib.*

Azərbaycan Müdafiə Nazirliyinin dəvətinə əsasən Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin komandanı general-mayor Andrey Volkov, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin Türkiyə kontingentinin rəhbəri general-mayor Fatih Akpınar və Rusiya kontingentinin rəhbəri kontr-admiral Oleq Semyonov noyabrın 23-də qeyd olunan ərazidə olublar.

Qeyd edək ki, 2021-ci ildə Ermənistanda istehsal edilmiş 350 ədəd PMN-Э tipli piyada əleyhinə mina bölmələrimiz tərəfindən noyabrın 21-də zərərsizləşdirilib.



# Hərbi attaşelər və media nümayəndələri Sarıbaba istiqamətində mina sahəsinə baxış keçiriblər

Azərbaycan Respublikasında akkreditə olunmuş xarici ölkələrin hərbi attaşeləri və kütləvi informasiya vasitələrinin nümayəndələri qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Sarıbaba yüksəkliyinin şimal istiqamətində basdırılmış Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin aşkar etdiyi Ermənistan istehsalı olan piyada əleyhinə mina sahəsinə baxış keçiriblər.

Müdafiə Nazirliyinin təşkilatçılığı ilə keçirilən səfərdə nümayəndələrə ərazidə aparılan minatəmizləmə tədbirləri və noyabrın 21-də aşkar olunan 2021-ci ildə Ermənistanda istehsal edilmiş 350 ədəd PMN-Э tipli piyada əleyhinə mina sahəsi haqqında ətraflı məlumat verilib.



# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Həmrəyliyimiz - birliyimizin və varlığımızın qarantıdır. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür.

**Suallar:**

**1. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür.**

**2. Dünya azərbaycanlılarının vahid birliyinin bərqərar olunması.**

## 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür

Hər bir xalqın milli varlığını şərtləndirən əsas amillərdən biri onun etnik-siyasi mütəşəkkilliyi, milli həmrəyliyidir. Azərbaycanlılar minilliklər boyu özlərinin tarixi torpağı olan Azərbaycan ərazisində yaşayaraq, bəşər sivilizasiyasına böyük töhfələr veriblər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanıb, azərbaycanlıların bir qismi yurd-yuvalarından didərgin salınıb, deportasiyalara məruz qalıb, iş tapmaq, təhsil almaq məqsədi ilə doğma Vətəni tərk edərək başqa ölkələrdə məskunlaşıblar.

Ölkəmizin bolşeviklər tərəfindən işğalından sonra uzun bir dövr Vətəndə yaşayan azərbaycanlılar başqa ölkələrdə məskunlaşmış həmvətənliləri ilə görüşmək, əlaqələr yaratmaq imkanından məhrum olublar. Sovet rejiminin zəifləməyə başladığı 1989-cu illərin sonlarında Azərbaycan xalqı öz həmvətənləri ilə əlaqələr yaratmaq üçün səylərini artırdı. 1989-cu ildə Azərbaycan Xalq Hərəkatının fəalları azərbaycanlıların yaşadığı tarixi ərazini ikiyə bölən keçmiş SSRİ və İran sərhədinin Naxçıvan Muxtar Respublikasının Ordubad və Şərur rayonları arasındakı hissəsini sökdü. Son iki yüz ildə ilk dəfə olaraq indiki İran ərazisində və Azərbaycan Respublikasında yaşayan azərbaycanlılar Araz çayını keçərək görüşdülər. Bu vaxt İstanbulda türkdilli xalqların Konfransı keçirilirdi və qeyd olunan Konfransda dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verildi.

Tarix dəfələrlə sübut edib ki, milli birliyi formalaşdırmaq, eyni hədəf uğrunda mübarizəni təmin etmək üçün böyük liderlərə ehtiyac duyulub. 16 dekabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Bu müqəddəs missiyanı həyata keçirən müstəqil Azərbaycan Respublikasının qurucusu Ulu Öndərin çoxmilyonlu azərbaycanlıları birləşdirmək istəyi, arzusu, amalı, bu tarixi hadisənin bünövrəsini qoymuşdur.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəyliyi gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilib. İndi bu bayramı hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət və Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir. Həmrəylik bayramı ilk növbədə azərbaycançılıq ideologiyasına söykənir. Son illərdə bu ideologiya müstəqil Azərbaycanın çiçəklənməsində və dünya azərbaycanlılarının özünüdərkinə təkan verən güclü bir amilə çevrilmişdir. Dünyanın hər yerindən səsi gələn həmvətənlərimiz isə azərbaycançılıq amalı ətrafında milli birlik, həmrəylik nümayiş etdirir və bütün bacarıqlarını ümummilli məqsədlər naminə səfərbər edirlər.

Azərbaycançılıq ideologiyası ətrafında birləşən hər bir soydaşımız harada yaşamasından asılı olmayaraq ana vətənin inkişafına, onun dünya birliyində layiqli yer tutmasına və tanınmasına, mədəniyyətimizin təbliğinə, ölkəmizlə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırılmasına töhfə verməyi özünə mənəvi borc sayır.

## Dünya azərbaycanlılarının vahid birliyinin bərqərar olunması

Qədim tarixə malik xalqımız bu əlamətdar bayramı uzun illərdən bəri yaranmış, qorunub saxlanılmış ənənələrinə, mədəniyyətinə, tarixi köklərinə xas olan xoş amallarla, duyğularla keçirir. Bu bayram ildən-ilə daha geniş vüsət alır, ürəklərində Vətən eşqi, milli-mənəvi birlik hissləri bəsləyən hər bir soydaşımız tərəfindən güclü dəstək alır. İlk dəfə həmrəylik və birlik arzuları ilə dillərə gətirilən və rəsmiləşdirilən bu bayram ürəklərdə uzun illərdən bəri qorunan azadlıq və birlik hisslərinin təzahürüdür.

Ulu Öndər Heydər Əliyevin ölkəmizdə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımız üçün milli iftixar mənbəyi, mənəvi dayaq və güc mənbəyi olmuşdur. Dahi şəxsiyyətin dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin təmin edilməsi ilə bağlı ideyaları bu gün də aktualdır. Dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini daim diqqət mərkəzində saxlayan Ulu Öndərin uzaqgörənliyi xalqı öz ətrafında birləşdirməyə qadir olduğunu nümayiş etdirdi. Ulu Öndər Heydər Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə xarici ölkələrdə yaşayan azərbaycanlılara müraciətində deyirdi: "Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla azərbaycanlı yaşayır, işləyir, fəliyyət göstərir. Buna baxmayaraq onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir".

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların birliyinin və həmrəyliyinin təmin olunması məqsədilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Qurultayda dərin məzmunlu nitq söyləyən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini bildirmişdir. "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürür mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!". Ulu Öndərin bu kəlamları hər bir həmvətənimiz üçün milli qürur rəmzinə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyevin dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşməsi və güclü diasporumuzun yaradılması siyasətini Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev cənabları davam etdirir. Soydaşlarımız Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir və cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi heyrətamiz uğurlarla fəxr edirlər.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 8 fevral 2006-cı il tarixli Sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II qurultayının keçirilməsi diaspor quruculuğu işinə yeni nəfəs vermişdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev xarici ölkələrdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını dövlətin başlıca vəzifəsi hesab edir.

Türk Dövlətləri Təşkilatının 2022-ci ilin noyabrında Özbəkistan Respublikasının Səmərqənd şəhərində keçirilən IX Zirvə toplantısında Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşərək xaricdə yaşayan azərbaycanlıların hüquq və azadlığının, təhlükəsizliyinin təmin edilməsinə xüsusui diqqət yetirdiyini, dilimizi, ənənələrimizi mədəniyyətimizi qoruyub saxlamaları, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi Vətənləri ilə əlaqələrin heç vaxt kəsilməməsi üçün səylərini davam etdirəcəyini bildirmişdir.

2009-cu ildə Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci sammitinin keçirilməsi ümumtürk birliyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü strategiyanın uğurlu davamıdır. Türkdilli ölkələrin dövlət başçılarının 2009-cu ilin oktyabrında Naxçıvanda keçirilən Zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dərin məzmunlu çıxış etmiş, türkdilli dövlətlərin birliyini zəruri edən amilləri bir daha diqqətə çəkmişdir: "Biz bilirik ki, beynəlxalq müstəvidə öz mövqeyini müdafiə etmək bəzi hallarda o qədər də asan olmur. Biz birlikdə olsaq, müəyyən məsələlərdə vahid mövqedən çıxış etsək və bu birliyi mütəmadi işlərlə möhkəmləndirsək, bizim beynəlxalq mövqelərimiz daha da güclü olacaqdır. Çünki türkdilli dövlətlərdə bütün imkanlar vardır - təbii sərvətlər, neft-qaz yataqları, əlverişli coğrafi vəziyyət, güclü iqtisadiyyatlar, insanların istedadı, mövcud olan yeni infrastruktur. Bütün bu imkanları biz əgər bir yerə toplasaq və bir yerdə cəmləşdirsək, türkdilli dövlətlər dünya miqyasında böyük gücə çevriləcəkdir. Bu gücə çevrilmək üçün biz səmərəli işləməliyik. Bu, bizim əlimizdədir, bizim iradəmizdən asılıdır. Mən çox şadam ki, bizim aramızda olan birlik son illər daha da güclənir".

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar tərəfindən qeyd edilir, Azərbaycan Respublikasında isə dövlət bayramıdır. Hazırda dünyada 50 milyondan çox azərbaycanlı yaşayır. Müxtəlif mənbələrin məlumatlarına görə, İranda 35-40 milyon azərbaycanlı var. O cümlədən, Rusiya, Türkiyə, Almaniya, Fransa, Böyük Britaniya, Skandinaviya ölkələrində, ABŞ-da, Yaxın Şərq ölkələrində böyük azərbaycanlı icmaları fəaliyyət göstərir.

Diaspor quruculuğu sahəsində hələ çox işlər görülməlidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması deməyə əsas verir ki, yaxın illərdə Azərbaycan diasporu daha da güclənəcək, ölkənin taleyüklü məsələlərinin həllində daha yaxından iştirak edəcəkdir. Azərbaycanlıların yaşadıqları hər bir ölkədə bir neçə diaspor təşkilatı var və bu təşkilatlar arasında koordinasiya işi aparılır. Biz ölkə daxilində də, xaricdə də birlik nümayiş etdirməliyik və unutmamalıyıq ki, gücümüz birliyimizdədir. Bu gün Azərbaycanda vətəndaş cəmiyyəti birlik nümayiş etdirərək, vahid amal uğrunda çalışırıq. Ölkəmizin gələcəyi ilə, strateji istiqamətlə bağlı cəmiyyətimizdə fikir ayrılığı yoxdur. Dövlət müstəqilliyi, iqtisadi müstəqillik, sosial məsələlərin həlli, ərazi bütövlüyümüzün bərpası və digər məsələlər ətrafında cəmiyyətdə vahid fikir var.

Vətən müharibəsi dövründə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin yenilməz qətiyyəti, ilk gündən nümayiş etdirdiyi hərbi-siyasi iradəsi xalqımızı bu qələbəyə ruhlandırdı. Dövlət başçısının vətənpərvərliyi xalqımızı torpaqlarımızın azadlığı uğrunda mübarizədə həmrəy etdi. Siyasi əqidəsindən, statusundan, vəzifəsindən, milli mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı milli həmrəylik nümayiş etdirdi. Dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar tarixdə görünməmiş dərəcədə fəallıq göstərdilər, daha sıx birləşdilər. Yaşadıqları ölkələrdə Azərbaycanın haqq səsinin eşidilməsi üçün səylərini əsirgəmədilər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 31 dekabr 2021-ci ildə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə dünya azərbaycanlılarına təbrikində demişdir: "Sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqı Vətən müharibəsinə qalxmışdır. Müzəffər Azərbaycan Ordusu hər anı qəhrəmanlıqla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğratmış və ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir. Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmən və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur".

Bəli, Vətən müharibəsi xalqımızın mübarizliyini bütün dünyaya nümayiş etdirdi. Eyni zamanda, bu savaşda xalqımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə milli həmrəyliyin ən mükəmməl nümunəsini yaratdı. Heç bir qüvvə bu sarsılmaz birliyi pozmaq iqtidarında deyil.

31 Dekabr - Azərbaycan xalqının tarixində ən yaddaqalan, birliyimizin təcəssümü olan - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür!

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Analitik şərh*

# Fərqli bucaq altında baxış və ya neohibrid savaşın təzahürləri

Azərbaycan Ordusunun şücaəti qarşısında tab gətirməyən, döyüşdə məğlub olan düşmən təcavüzkar xislətinə uyğun olaraq, havadarlarının dəstəyi sayəsində çirkin addımlara, təxribatlara əl atdı, müharibəni informasiya müstəvisinə yönəldərək, dövlətimizin, ordumuzun, ölkə rəhbərliyinin əleyhinə qarayaxma kampaniyaları apardı. İnformasiya təxribatı bu gün də davam etməkdədir. Bütün bunlar yeni nəsil savaşların - neohibrid müharibənin təzahürüdür. Əminik ki, biz, dünya azərbaycanlıları, dövlətimizin ətrafında "Dəmir yumruq" kimi birləşərək bu savaşdan da uğurla, alnıaçıq çıxacağıq.

Azərbaycanlılar Vətəninə sevgi və hörmət bəsləyən, şərəf və vicdanını uca tutan, daima ordumuza dayaq olan, dəstək verən vətənpərvər insanlardır. Vətən müharibəsində nümayiş etdirdiyimiz həmrəylik, birlik və vətənpərvərlik bütün dünyaya bir daha sübut etdi ki, bu dəyərlər azərbaycanlılar üçün müqəddəsdir. Bu dəyərlərin itirilməsi bizi köklərimizdən qopara bilər, kökləri olmayan ağac isə quruyub məhv olmağa məhkumdur.

Təsadüfi deyil ki, düşmənin hiyləsi, məkrli planları da məhz bir çox etnik qrupların, müxtəlif dini konfessiyaların tolerantlıq, dostluq şəraitində yaşayan ölkəmizin, xalqımızın parçalanmasına, tarixi köklərin qırılmasına hesablanıb. Məqsəd - cəmiyyətin mənəvi bünövrəsini sarsıtmaq, insanları pərən-pərən salmaq, çaşqınlıq yaratmaq və nəticədə yenidən təcavüz edərək, məğlub etmək, məhv etməkdir. Pərdəarxası oyunların, informasiya qarşıdurmalarının, neohibrid savaşın bir səmti də saxta məlumatları yaymaq, qlobal internet şəbəkəsi, onlayn media resursları, telekanallar, sosial şəbəkələr vasitəsilə mənfi məzmunlu kampaniyalar aparmaqla ictimaiyyət arasında neqativ rəy formalaşdırmaq, düşüncələri zəhərləmək, vətəndaşlar ilə dövlət qurumları arasında bağların, sağlam əlaqələri qırmaq cəhdlərindən ibarətdir. Bu qəbildən olan kampaniyalar və informasiya hücumları məkrli fərdlər, xaricdə, həmçinin daxildə yaşayan, "sapı özümüzdən olan baltalar", bizi gözü götürməyənlər tərəfindən səxavətlə həvəsləndirilən qrant həvəskarları, eləcə də xarici "mütəxəssislər" üçün bir fürsət, əsl fəaliyyət meydanıdır. Axı rahat kresloda əyləşib fikir söyləmək, qınamaq, tənqid etmək, təhqirlər yağdırmaq çox asandır!

Hibrid müharibələrin əsas fəaliyyət sahələrindən biri informasiya məkanı, hədəf istiqamətlərindən biri isə insan şüuru, daxili aləmi, xəyal dünyasıdır. Təsir mexanizmi əhalinin narahatlığına, bədbinliyinə səbəb olan, qorxu, həyəcan, daxili təlatüm yarada biləcək xəbərləri yaymaqla informasiya hücumlarının təşkil edilməsindən ibarətdir. Çünki çaşqın insanlar məlumatların psixoloji emalından daha asan imtina edir, düşünmək, təhlil aparmaq, gizli mətləbləri anlamaq istəyindən vaz keçirlər və nəticədə düzgün qərar qəbul edə bilmirlər. Azərbaycan cəmiyyəti çərçivəsində bu cür informasiya hücumları bəzi yerli KİV-lərdə və sosial şəbəkələrdə davamlı olaraq intihar, boşanma, qadına, uşaqlara qarşı şiddət, amansız davranış aşılayan, kin, nifrət dolu xəbərlərin, şəkillərin və videosüjetlərin yayılması ilə baş verir. Mənfi məlumat bolluğu sayəsində artıq insanların daxili aləmində zorakılığa qarşı sanki bir növ immunitet yaranıb, insan psixikası bu neqativ emosiyalarla, zorakılıq obrazları ilə yavaş-yavaş barışır, tədricən cəmiyyətdə biganəlik tendensiyaları adi hal alır. Günbəgün böyük bir kütlənin daxilində ikitirəlik formalaşır, orqanizmin mənfiyə reaksiya vermə qabiliyyəti zəifləyir, müsbət duyğular kortlaşır, zehin kütləşir, kəskinliyini itirir. Genetik səviyyədə olmasa da, sanki duyğusal anlamda insanlar zombiləşir. Bu, neohibrid savaşın dağıdıcı nəticələridir.

***Vətən müharibəsində əldə etdiyimiz şanlı Zəfərin ikinci ildönümünü qeyd etdik. Savaş meydanında qəhrəmancasına qalib gələrək, tarixi ədaləti bərpa etdik. Torpaqlarımız işğaldan azad edildi. Biz öz doğma ellərimizə qayıtdıq! Üçrəngli Azərbaycan bayrağı işğaldan azad edilmiş ərazilərdə əzəmətlə dalğalanır və əminik ki, bu əbədidir! Dünya durduqca şərəfimiz, and yerimiz - bayrağımız qürurla dalğalanacaqdır.***

Cizgi və animasiya filmlərində, eləcə də digər ekran əsərlərində ötürülən subliminal mesajlar sayəsində müsbət qəhrəmanlar obrazı tamamilə məhv edilir və ya dəbdən düşür. Acınacaqlı və həyəcan təbili vurmalı olduğumuz ən əsas məqam isə uşaqların asudə vaxtlarını dolduran, yeniyetmələrimizi cazibəsinə salan video oyunların qəddarlıq, zorakılıq, amansızlıq, şiddət çalarlarıdır. Uşaqlar mütəmadi olaraq sosial mediada nümayiş olunan zorakılıq səhnələrini həyəcanla müzakirə edir, paylaşır və özləri də hiss etmədən günbəgün bu mənfi amillərin təsiri altına düşürlər. Təəssüf ki, bu növ paylaşımlar, insan psixikasına mənfi təsir göstərən məlumatların yayımlanması müasir tendensiya və dövrün trendinə çevrilib. Bədbəxt hadisənin şahidi olanlar xəsarət alanlara, qəza qurbanlarına kömək etmək, yardım əli uzatmaq əvəzinə, baş vermiş hadisəni, yaranmış vəziyyəti mobil telefon vasitəsilə çəkərək başqalarından daha tez sosial şəbəkələrdə yaymaqla gündəmdə qalmağa can atırlar. Əslində isə, bu cür rəftar təbiətcə istiqanlı, mərhəmətli azərbaycanlılara xas deyil. Bu səbəbdən də belə düşüncə tərzi tədricən, planlı şəkildə cəmiyyətimizə, insanların beyninə yeridilir və onlarda xeyirxah davranışlara qarşı biganəlik formalaşdırmaq məqsədi güdür.

Toxunmaq istədiyimiz başqa bir vacib məqam hər bir ölkənin, dövlətçiliyin sütunu hesab edilən güc mərkəzlərinin, xüsusən də Azərbaycan Ordusunu hədəfə alan informasiya hücumlarıdır. Çox zaman Azərbaycan Ordusunun komandanlığının ünvanına səsləndirilən tənqidlər, neqativ fikirlər sosial media platformalarında planlı şəkildə və sistematik yayımlanır. Bizlər də bu neqativ məlumatları oxuduqca, reaksiya verdikcə, bilməyərəkdən də olsa, bu növ məlumatların təsir dairəsinə daxil oluruq. Bu planların ən əsas məqsədlərindən biri də məhz insanların qəlbinə şübhə, güman toxumu səpməkdir.

Şəxsi ambisiyaları, fitnə-fəsadları qırağa qoyub, ilk növbədə unutmamalıyıq ki, ordusuz hər hansı bir dövlətin, ölkənin varlığı mümkünsüzdür, xüsusilə də müasir dövrdə. İndiki dünya nizamında güclü, peşəkar, istənilən təhdidlərə adekvat cavab verə biləcək, müdafiə qabiliyyəti yüksək olan ordunun mövcudluğu həyati zərurət məsələsidir. Bundan əlavə, qüdrətli ordu xalqın qürur mənbəyi, gələcək uğurların təminatçısıdır. Əlbəttə ki, ordu da nəhəng, çoxminlik kollektiv kimi çatışmazlıqlardan sığortalanmayıb. Lakin etik normalara sığmayan, qanunlara, o cümlədən dövlət sirri haqqında qanuna zidd olan məlumatların sızdırılması, sosial şəbəkələrdə paylaşılması çatışmazlıqları aradan qaldırmaq üçün deyil, başqa məqsədlər güdür. Heç şübhəsiz ki, ölkəsini ürəkdən sevən, orduya can yandıran, respublikamızda baş verən müsbət proseslərə laqeyd olmayan vətənpərvər insanlar sosial mediada, yəni, açıq, hamıya, o cümlədən düşmənlərimiz üçün də əlçatan məkanda silah, texnika, bölmələrin dislokasiyası, yerdəyişmələri, ştat-struktur quruluşu barədə məlumatları sızdırmaz və ən əsası ordumuzun nüfuzuna xələl gətirən addımlara yol verməz! Həm də ki, İkinci Qarabağ müharibəsində Zəfər qazanan Azərbaycan Ordusuna!

İnformasiya qarşıdurmasının, neohibrid savaşın ən başlıca məqsədlərindən biri də məhz Azərbaycanın hərbi gücünü zəiflətməkdir. Bununla bağlı bəzi nüanslara toxunmaq istərdik.

Azərbaycana müasir silah və hərbi avadanlıqların satışına qadağa qoyulmasına can atan qüvvələr beynəlxalq müstəvidə uğur əldə edə bilmədikdən sonra, ölkəmizin siyasi və hərbi uğurlarına kölgə salmağa çalışırlar. Vətən müharibəsi əyani surətdə sübut etdi ki, Azərbaycanın əsas hərbi gücü vətənpərvər gənclər, vahid komandanlıqdan idarə olunan ordu, iqtisadi qüdrətimiz və ən müasir silahlardır. Vətən müharibəsində qələbəmizi şərtləndirən başlıca amillərdən biri də məhz gənc vətənpərvər nəsildir. Azərbaycançılıq məfkurəsi, xalqımıza xas olan zəngin ailə ənənələrinə, mənəvi dəyərlərə söykənərək formalaşan gənc nəslin nümayəndələri zəfər tarixini yazan müzəffər Azərbaycan əsgərləridir. Qəhrəmanlıq tariximiz olduqca zəngindir. Xalqımız, torpağımız böyük, qüdrətli, adları dillər əzbəri olan igid qəhrəmanlar yetişdirib. Fikrimizcə müsbət qəhrəmanı səciyyələndirən əsas xüsusiyyətlərdən biri də təvazökarlıqdır. İgidə öyünmək yaraşıq deyil. Bu, ulu əcdadlarımızın müdrik kəlamıdır. Təəssüf ki, milli-mənəvi dəyərlərimizin sarsıdılmasına, insanların, xüsusilə də cavan nəslin nümayəndələrinin yalançı meyarlara sövq edilməsinə tuşlanmış neohibrid savaşlar postmüharibə dövründə geniş vüsət almış, dil pəhləvanları, lovğalar, bəzi hoqqabazlar fürsətdən istifadə edərək baş qaldırmışlar. Məqsəd isə bəllidir - şəhidlərimizin qanı bahasına qazandığımız qələbənin əhəmiyyətini azaltmağa nail olmaq, əsgər valideynləri, şəxsi heyət arasında ordu rəhbərliyinə qarşı inamsızlıq yaratmaq, cəmiyyətdə çoxtirəliyə nail olmaq, gənclərdə vətənpərvərlik hisslərini zəiflətmək, hərbi xidmətə marağı azaltmaq, döyüşə, Vətənin müdafiəsinə hazır olma duyğularını öldürmək, bədbinlik toxumları səpməkdir. Adi hadisəni, kiçik nöqsanı, hər hansı məişət zəminli cinayəti əldə bayraq edənlərin əsas hədəfi kimliyindən asılı olmayaraq müxtəlif vəzifələr daşıyan fərdlər deyil, ümumilikdə ordu rəhbərliyidir. Fikrimizcə ordumuzla, Vətən müharibəsi ilə bağlı istənilən məlumatların ictimailəşməsinə xüsusi həssaslıqla yanaşılmalıdır. Unutmamalıyıq ki, məhz vətənpərvər, yurdsevər insanların, ümumi məqsəd naminə həmrəy olan gənclərin, qətiyyətli iradənin və düzgün strategiyanın sayəsində biz tarixi qələbə qazandıq, torpaqlarımızı işğaldan azad etdik. Birlik, yüksək mənəviyyat, vətənpərvərlik, əzm, qətiyyətli iradə, siyasi erudisiya, diplomatik sahədə uğurlarımız möhtəşəm Zəfərimizi şərtləndirdi. Budur, Azərbaycan xalqı! Həmrəylik, bir-birimizə dəstək, vahid ideya, ümumxalq məqsəd ətrafında birləşmək bacarığı millətimizin böyüklüyünü Vətən müharibəsi zamanı bütün dünyaya bir daha göstərdi.

Neohibrid müharibənin təzahürü olan dağıdıcı informasiyaların psixoloji təsirindən yalnız öz dünyagörüşümüzü genişləndirməklə, siyasi savadımızı artırmaqla qurtula bilərik. Yaxşını yamandan ayırmaq, neqativ informasiyaların təsirini zəiflətmək üçün, başqasının şahmat oyununda piyada olmamaq üçün media-da və sosial şəbəkələrdə fəal maarifləndirmə işlərinin aparılması olduqca vacibdir. Əbəs yerə deməyiblər ki, xəbərdar olan, zəruri informasiyaya malik olan silahlıdır!

Şübhəsiz ki, ölkəmizdə sadaladığımız neqativ halların qarşısını almaq üçün kifayət qədər işlər görülür. Amma bu məsələyə hər bir vətəndaş fəal qoşulmalıdır, bu artıq zamanın tələbidir. Ölkəsini sevən, dövlətçiliyimizə bağlı olan, ordumuza hörmətlə, rəğbətlə yanaşan, Şanlı Zəfərimizdən qürur duyan insanlar tapşırıq gözləmədən, göstəriş almadan informasiya qarşıdurmasına qatılmalı, neohibrid savaş əməliyyatlarına qarşı səfərbər olmalıdır. Respublikamızda fəaliyyət göstərən internet telekanalları, bloqerlər, ekspertlər, sosial şəbəkə istifadəçiləri, savadlı və fəal gənclər, ehtiyatda olan hərbçilər, media nümayəndələri təşəbbüslə çıxış etməli, ordumuza qarşı internet üzərindən aparılan kampaniyalara qarşı əks-tədbirlər görməlidirlər. Çoxlu sayda müsbət rəylər, ekspert açıqlamaları dərc edilməli, ordumuzu təbliğ edən, onun nüfuzunu qoruyan şərhlərin paylaşılması hər kəsin gündəlik fəaliyyətinin bir parçası olmalıdır. Ordumuzla bağlı uydurma, rəsmi təsdiqini tapmamış, saxta məlumatlar yayanlar, mövzuya aidiyyəti olmayan videoçarxlar montaj edərək paylaşanlar, ağlasığmaz, məntiqsiz mülahizələr irəli sürənlər, internet istifadəçiləri kütləvi şəkildə "blok edilməli", internet resurslarına şikayətlər olunmalı, internet üzərindən hərbi qulluqçularımıza yönəldilmiş qərəzli kampaniyaların qarşısı alınmalıdır. Zərərli, mentalitetimizə yaraşmayan, mənəvi dünyamıza uyğun olmayan "ideya"larla ordumuzun şəxsi heyətinin, xidmətə hazırlaşan gənclərimizin, hətta əsgər valideynlərinin beyninin zəhərlənməsinə yol verilməməlidir. Bu, ümumxalq işi, vətəndaşlıq borcumuzdur!

Vətən müharibəsində olduğu kimi, informasiya qarşıdurmasında da, neohibrid savaşında və gizli düşmənlərimizə qarşı "Dəmir yumruq" kimi birləşərək qalib gələcəyimizə əminik!

**İsa İSMAYILOV**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü,**
**Nadiyə QAFAROVA**
**publisist, tərcüməçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü**

*Döyüş təəssüratları*

# Bu müqəddəslik əbədiyyən yaşayacaq

*Hərbçi taleyimdən razıyam ki, mən də İkinci Qarabağ müharibəsinin iştirakçısı olmuşam, xidmətimi qalib əsgər kimi davam etdirirəm.*



Bölüyümüz döyüşə Füzuli istiqamətindən qoşulmuşdu. Komandirimizin əməliyyat şəraiti haqqında dedikləri bizim döyüşümüzün məsuliyyətini də, qətiyyətliliyini də artırmışdı. Bilirdik ki, bütün döyüşlər Böyük Qələbə, nəticə etibarilə torpaqlarımızın işğaldan azad edilməsi üçündü.

Düşmən inadla müdafiə olunurdu. Komandanlığın əmri ilə əks-hücum istiqamətimiz dəyişə-dəyişə, gizliliyi gözləməklə irəliləməyə çalışırdıq. Düşmən kəşfiyyatı bizi müşahidə edibmiş. Qəflətən mənim döyüşdüyüm mövqenin yaxınlığına bir mərmi düşdü. Ayağımdan yaralandım, lakin bir müddət büruzə vermədim. Döyüşçü yoldaşlarımdan biri bunu duyubmuş. Məni döyüşdən çıxartdılar.

Təxliyə olundum. Müayinə elədilər, müalicə müəyyənləşdirdilər. Həkim könlümü almaq üçün "Yaran çoxmu incidir?" deyə soruşdu. "Yara sağalacaq, həkim. Məni yara yox, döyüşlərdən uzaqda qalacağım incidir...", - dedim. "Bu yara ilə niyə döyüşməyim ki?", - sualım həkimi düyünləndirdi. Az sonra təkidimlə məni bir də müayinə etdilər. Yenidən döyüşlərə qayıtdım...

Hərbi hissəmiz Şuşa ətrafında döyüşürdü. Döyüşlərə belə bir vaxtda qayıtmağımın sevinci yerə-göyə sığmırdı. Onda döyüşçü yoldaşlarımdan birinin dediyi kəlmələri döyüşə başlayacağımız anların əsgər xeyir-duası bildim: Hadrutu azad edəndən sonra Şuşa uğrunda döyüşəcəkdik. Bu sevincdən də gözəl sevinci orada yaşayacaqdıq!

Hadrut istiqamətində düşmən ciddi müqavimət göstərirdi. Hiss edilirdi ki, Hadrut onların Şuşa istiqamətində, müəyyən mənada, dayaq məntəqəsidir. Döyüşlərlə qəsəbəyə yaxınlaşırdıq. Bir neçə gündən sonra dağlıq massivlə Hadruta çatdıq. Hadruta yuxarıdan baxırdıq. Bir azdan dan yerinə düşəcək qızartı qazanacağımız qələbənin işığı olacaqdı. Müxtəlif istiqamətlərdən düşmən üzərinə hücuma keçdik. Düşmən əl-qol aça bilmədi. Ermənilər döyüşlər getdiyi müddətdə qaçmışdılar. Hərbçilər də, mülkilər də. Hadrut döyüşünü Şuşa döyüşündən əvvəl Azərbaycan əsgərinin qətiyyətli döyüşlərindən biri hesab edirəm...

Hadrutun ermənisizləşdirilməsi döyüşən ordumuzun qələbə ruhunu yüksəltdi. Belə döyüşlər ordumuzun sonrakı döyüşlərində, nəticə olaraq qələbə qazanmasında çox əhəmiyyətli oldu.

İkinci Qarabağ müharibəsində qazanılan böyük Zəfər Azərbaycan Ordusunun qüdrəti kimi tarixləşdi...

Zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildim. Bu təltiflər yaşayacağım illərdə Vətən müharibəsini, döyüşçü dostlarımın xatirələrini, şəhidlərimizin ruhunun ölməzliyini yaşadacaq. Vətən müqəddəsdi, müqəddəs Vətən üçün qazanılmış Zəfər də müqəddəsdi. Bu müqəddəslik əbədiyyən yaşadılacaq...

**Çavuş**
**Rüstəm RÜSTƏMOV**
**"N" hərbi hissəsi**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Məişət*

# Əsgərlərimizin sosial-məişət şəraiti diqqət mərkəzindədir

Düşmənlə sərhəddə olan "N" hərbi hissəsindəyik. Uca dağların zirvəsində yerləşən mövqedə səliqə-sahman, təmizlik və şəxsi heyətin məişət şəraiti diqqətimizi cəlb etdi. Bütün bunlar dövlət başçısının orduya göstərdiyi diqqət və qayğının təzahürüdür. Yeni tikilən qazanxanalar, yeməkxanalar, yataqxanalar, camaşırxanalar, istirahət və hamam otaqlarına bütün hərbi hissələrdə rast gəlirik. Bunlar şəxsi heyətin xidmətinə yönələn prosesdir ki, Müdafiə Nazirliyinin rəhbərliyi bu məsələləri daim diqqət mərkəzində saxlayır.

Əsgər yataqxanasında əsgər Rəvan Abdulrəhmanov və Orxan Məmizadə ilə bu mövzu ətrafında söhbətləşdik.

Şəki rayonunda dünyaya göz açan və xidmətinin artıq çox hissəsini geridə qoyan əsgər Rəvan Abdulrəhmanov bildirdi ki, hər bir Azərbaycan gənci kimi onun da arzusu Vətənin keşiyində durmaq, vətəndaşlıq borcunu layiqincə yerinə yetirmək olub. Həmçinin məktəbli olduğu üçün Vətən müharibəsinə qatıla bilməməkdən təəssüfləndiyini də vurğuladı. "Postumuzun ucqar zirvədə və xain düşmənlə üzbəüz yerləşməsinə baxmayaraq hər cür şəraitlə təmin olunmuşuq. Gördüyünüz kimi, komandanlığın diqqət və qayğısı sayəsində sosial-məişət şəraitimiz, qida və geyim təminatımız yüksək səviyyədədir. Dövlət bizim, biz də Vətən torpağının qayğısına qalırıq. Hər birimiz vəzifə borcumuza məsuliyyətlə yanaşır, verilən bütün əmr və tapşırıqları vaxtlı-vaxtında icra edirik. Vətən müharibəsində iştirak edə bilməsək də, qəhrəmanlarımızın miras qoyduğu torpaqlarımızı göz bəbəyimiz kimi qoruyuruq".



- Burada yaradılan yüksək məişət şəraiti hər birimizdə ruh yüksəkliyi yaradır, - deyə əsgər Orxan Məmizadə söhbətimizə qoşuldu. Biləsuvar rayonundan ordu sıralarına çağırılan Orxan qeyd etdi ki, mütəmadi olaraq yataq dəstlərimiz yuyulur, təmizlənir, daha sonra isə ütülənərək əvəz edilir. Bu qayğının qarşısında üzərimizə yalnız bir vəzifə düşür - Vətənə sadiq əsgər olmaq və layiqli xidmət etmək. Hər birimiz bu vəzifənin öhdəsindən layiqincə gələrək torpaqlarımızın keşiyində ayıq-sayıq dayanırıq. Bilirik ki, mənfur düşmən istənilən an təxribata əl ata bilər. Əgər atarsa, bilməlidirlər ki, güclü və qalib ordumuz Vətən müharibəsində olduğu kimi, yenə də onları məhv edəcək".

Burada yaradılan şəraitlə tanış olduqdan sonra bir daha əmin olduq ki, Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən ordumuzun döyüş qabiliyyəti ilə yanaşı, ən ucqar postlarında belə maddi-texniki təminatı, həmçinin şəxsi heyətin sosial-məişət şəraiti olduqca yüksək səviyyədədir. Bütün bu amillər isə dövlət rəhbərliyi tərəfindən hər bir hərbi qulluqçuya göstərilən diqqət və qayğının göstəricisidir. Bunun qarşılığında cəsur əsgərlərimiz bir amal naminə xidmət edirlər - Vətənin keşiyində ayıq-sayıq dayanmaq.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Böyük Britaniya Ukraynaya "Sea King" helikopterləri verəcək



Böyük Britaniya hökuməti Kiyevə üç ədəd "Sea King" helikopteri verəcək.

"The Times" qəzeti bu barədə Böyük Britaniyanın müdafiə naziri Ben Uollesə istinadla məlumat yayıb.

Bu, Böyük Britaniyanın Ukraynaya pilotlu uçan aparatların ilk tədarükü olacaq. Helikopterlər Kiyevə yeni hərbi yardım paketinin bir hissəsi olaraq çatdırılacaq. London, həmçinin Ukrayna Silahlı Qüvvələrini 10 min artilleriya mərmisi ilə təmin edəcək.

"Westland WS-61 Sea King" helikopterləri həm axtarış-xilasetmə, həm də kəşfiyyat əməliyyatları üçün istifadə edilə bilər. Bu model Folklend, Körfəz, Balkan və İraq müharibələri zamanı geniş istifadə olunub. Hazırda onların istehsalı dayandırılsa da, tədarükün dəyəri təxminən 5 milyon funt-sterlinqə (təxminən 6 milyon dollar) bərabərdir.

Böyük Britaniya bundan öncə Ukraynaya modernizə edilmiş yüksək dəqiqlikli "Brimstone 2" raketləri, 7 minə yaxın tank əleyhinə NLAW raket kompleksi, 100-dən çox zirehli texnika, "Starstreak" raketləri ilə təchiz edilən "Stormer" özüyeriyən zenit qurğuları, onlarla M109 haubitsası və yedəkli L119 topları, M270 yaylım atəş sistemləri, 16 mindən çox artilleriya mərmisi və 4,5 ton plastik partlayıcı göndərib. Həmçinin Böyük Britaniya hökumətinin Ukraynaya ABŞ-ın NASAMS zenit-raket kompleksləri üçün orta mənzilli AIM-120 (Advanced Medium Range Air-to-Air Missile, AMRAAM) raketləri, 125 zenit topu, həmçinin hava hücumundan müdafiəni gücləndirmək və pilotsuz uçuş aparatları ilə mübarizə aparmaq üçün xüsusi texnika tədarük edəcəyi məlum olub.

Bundan başqa, London hər dörd aydan bir 10 min ukraynalı əsgərə üç həftəlik təlim kursları təşkil edəcək. Son məlumata görə, britaniyalı təlimatçılar artıq Ukrayna Silahlı Qüvvələrinin 7 mindən çox hərbçisinə təlim keçib.

### Bundesverdə silah çatışmazlığı hiss olunur



Almaniyanın köhnə silahları Ukraynaya göndərməsi və onların müasir silahlarla əvəz edilməsi ilk baxışda Bundesverin silah təchizatının yenilənməsi proqramında əla sxem təsiri bağışlayır. Lakin bu sxem bir ciddi problemi üzə çıxarıb: silah təchizatının yenilənməsi, necə deyərlər, "qoğal bişirmək" deyil, zəruri həcmdə ən yeni silahlar istehsalı üçün illər tələb olunur.

Bu mövzu xeyli vaxtdır ki, alman tabloidlərinin və gündəlik qəzetlərin səhifələrindən düşmür. Görünür, ölkənin hərbi sənaye kompleksində heç kəs belə qısa müddətdə bu dərəcədə iri sifarişləri icra etməyə hazır deyil.

Bundesverin yenidən təchiz edilməsi üçün 100 milyard avroluq fond ayrılmasına baxmayaraq, bu gün ordunun maddi hazırlıq dərəcəsi fevralın 24-də olan vəziyyətdən yuxarı deyil. Ukraynada müharibə başlananda AFR Müdafiə Nazirliyində həyəcan təbili çalındı ki, ordu "boşdur" və qoşunlar əlavə silahlandırmaq lazımdır. Lakin o vaxtdan bəri vəziyyət yaxşılaşmayıb. Əksinə, ordunun ehtiyatlarında olan silahların Ukraynaya verilməsi, yeni problemlər yaradıb. İndi boşluğu doldurmaq üçün vaxt lazımdır. Ayrılmış fond hesabına alman qoşunlarının tam təmin olunması üçün illər lazımdır.

Paltar, dəbilqələr, gecəgörmə cihazları, müasir radiostansiyalar qıtlığı hiss olunur. Piyadaların döyüş maşınları, orta qüvvələr üçün təkərli maşınlar, yeni helikopterlər, pilotsuz uçuş aparatlarından qorunma vasitələri sarıdan böyük ehtiyac var.

**AZƏRTAC-ın**
**materialları əsasında**

| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Hüsniyyə İDRİSOVA | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 1127 Nüsxə 4740 |